

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 119 (24.006)

*26 iyun 2022-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 25 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da vardır.

**Cəbrayılov Aqil Ağacəfər oğlu – polkovnik**

**Əsədov Əli Hacı oğlu – polkovnik**

**Əliyev Rəşad Əmiralı oğlu – kapitan (ölümündən sonra)**

**Mikayıllı Samir Sabir oğlu – kapitan (ölümündən sonra)**

**Bayramov Ruslan Azər oğlu – baş leytenant (ölümündən sonra)**

**Əfəndiyev Adil Qədir oğlu – tibb xidməti leytenantı (ölümündən sonra)**

**Feyzullayev Zahir Eyvaz oğlu – leytenant (ölümündən sonra)**

**Quluzadə Kamran Pərviz oğlu – leytenant (ölümündən sonra)**

**Yaqubov Mayis Rəhim oğlu – leytenant (ölümündən sonra)**

**Əliyev Yadigar Səfxan oğlu – çavuş (ölümündən sonra)**

**Məmmədov Zaman Habil oğlu – kiçik çavuş (ölümündən sonra)**

**Babayev Babaxan Əlövsət oğlu – əsgər (ölümündən sonra)**

**Cəfərov Ülvi Habil oğlu – əsgər (ölümündən sonra)**

**Əliyev Lətif Oruc oğlu – əsgər (ölümündən sonra)**

**Həsənov Elməddin Elşən oğlu – əsgər (ölümündən sonra)**

**Xaməmmədov Şirxan Xaməmməd oğlu – əsgər (ölümündən sonra)**

**İbrahimov Ayaz Sultan oğlu – əsgər (ölümündən sonra)**

**İbrahimov Seymur Zamin oğlu – əsgər (ölümündən sonra)**

**İlyasov Fərid İbad oğlu – əsgər (ölümündən sonra)**

**İsmayılov Bahaləddin Temraz oğlu – əsgər (ölümündən sonra)**

**Mədətli Zülal Rəhim oğlu – əsgər (ölümündən sonra)**

**Məmmədov Əli Abbas oğlu – əsgər (ölümündən sonra)**

**Mirzəyev Sarvan Əli oğlu – əsgər (ölümündən sonra)**

**Rəhimov Yalçın Elçin oğlu – əsgər (ölümündən sonra)**

**Sadıqov Elvin Namiq oğlu – əsgər (ölümündən sonra)**

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni,

**Məmmədov Kamil Sədiyar oğlu – polkovnik**

"Vətən uğrunda" medalı,

**Dünyamalıyev Əziz Dünyamalı oğlu – polkovnik**

**Fərəcov Qabil Şərafəddin oğlu – mayor**

"İgidliyə görə" medalı,

**Rəsulov Azər Mustafa oğlu – polkovnik**

**Hüseynov Yaşar Qənbər oğlu – polkovnik-leytenant**

**Səfərov Sədi Nizami oğlu – polkovnik-leytenant**

**Gülməmmədov Ramin Ramiz oğlu – mayor**

"Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişlər.

## *Naxçıvanda Silahlı Qüvvələr Günü qeyd olunub*

## Şahbuz şəhərində xidməti yaşayış binasının və qüsursuz xidmət edən hərbçilərə mənzillərin təqdimatı olub

İyunun 25-də – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində Şahbuz şəhərində hərbçi ailələri üçün yeni xidməti yaşayış binası istifadəyə verilmiş, 20 ildən artıq qüsursuz xidmət edən 7 hərbçiyə mənzillər təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə tədbirə hazırlıq barədə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbir iştirakçılarını salamlamış, 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində Şahbuz şəhərində hərbçi ailələri üçün yeni xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə təbrik edərək demişdir: Güclü ordu dövlətçiliyin dayağı, xalqın təhlükəsizliyinin və ölkənin ərazi bütövlüyünün təminatıdır. Ümummilli liderimiz Heydər Əliyev bu məsələnin vacibliyini nəzərə alaraq deyirdi ki, ***"Ordu yaratmaq, onu torpaqlarımızı müdafiə edə bilən qüdrətli orduya çevirmək bizim müqəddəs borcumuzdur".*** Ulu öndər Sovetlər Birliyi dövründə hərbi kadr hazırlığının, 1990-1993-cü illərdə Naxçıvanda ilk milli ordu qurumunun və sərhəd dəstəsinin əsasını qoymaqla, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan Silahlı Qüvvələrini formalaşdırmaqla bu müqəddəs vəzifəyə nail olmuş, dövlətçiliyimiz və müstəqilliyimiz qorunub saxlanılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyev də ulu öndərin yolunu uğurla davam etdirərək ordumuzun qüdrətini daha da artırmış, torpaqlarımız işğaldan azad edilmiş, böyük tarixi Qələbə qazanılmışdır.





Ali Məclisin Sədri demişdir: Ümummilli liderin ordu quruculuğu strategiyasının bəhrəsi olaraq Naxçıvan Muxtar Respublikasında da müdafiə təhlükəsizliyi təmin edilmişdir. Müstəqillik illərində muxtar respublikada motoatıcı briqadadan Əlahiddə Ümumqoşun Orduya, sərhəd dəstəsindən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına qədər böyük yol keçilmiş, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası yaradılmış, Silahlı Qüvvələrin bütün qoşun növləri üzrə xidməti döyüş fəaliyyəti günün tələblərinə uyğun qurulmuşdur. Bununla yanaşı, muxtar respublikada hərbi infrastruktur da müasirləşdirilmiş, 300-dən artıq hərbi təyinatlı obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Sözsüz ki, bu illər ərzində ordu quruculuğu sahəsində qazanılmış ən böyük nailiyyət hərbi qulluqçuların döyüş hazırlığının artırılması, qarşıya qoyulan vəzifə və tapşırıqları yüksək hərbi səriştə, peşəkarlıq və vətənpərvərliklə yerinə yetirən şəxsi heyətin formalaşdırılması olmuşdur. Vətən müharibəsində Naxçıvandan olan hərbçilərin göstərdikləri hərbi şücaət bunu bir daha təsdiq etdi. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***



"Naxçıvanda hərbçi ailələrinin sosial məişət şəraitinin yaxşılaşdırılması da ordu quruculuğu tədbirləri sırasında xüsusi yer tutur", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, hər il yeni yaşayış kompleksləri tikilir, 20 ildən artıq qüsursuz xidmət edən hərbçilər mənzillə təmin olunurlar. İstifadəyə verilən yeni xidməti yaşayış binası da bu sahədə görülən işlərin davamıdır. Bu gün qalib ölkə kimi Silahlı Qüvvələr Gününü qeyd edirik. Bunun bir səbəbi qüdrətli ordu və güclü iqtisadiyyata malik olmağımızdırsa, ən başlıca səbəb isə ölkə Prezidenti tərəfindən ümummilli liderimiz Heydər Əliyevin yolunun uğurla davam etdirilməsidir.

Ali Məclisin Sədri qəhrəman şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirmiş, bir daha Silahlı Qüvvələr Günü münasibətilə təbriklərini çatdırmışdır.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev yeni xidməti yaşayış binasının istifadəyə verilməsi münasibətilə şəxsi heyət adından minnətdarlıq edərək demişdir ki, bu gün ölkəmizdə bütün sahələrlə yanaşı, ordu quruculuğuna da xüsusi diqqət yetirilir. Şəxsi heyətin döyüş hazırlığı artırılır, xidmət və yaşayış şəraiti yaxşılaşdırılır. İstifadəyə verilən yeni yaşayış binasında da zabit-gizir ailələri üçün hərtərəfli şərait yaradılmışdır. Ordu quruculuğu istiqamətində aparılan islahatlar nəticəsində muxtar respublikada yüksək dağ şəraitində yerləşən hissə və bölmələrdə də xidmət şəraiti yüksəldilmişdir.

*Ardı 2-ci səhifədə*





Artıq ən çətin dağlıq mövqelərdə belə hərbi qulluqçular üçün hərtərəfli məişət şəraiti yaradılıb. Şəxsi heyət göstərilən diqqət və qayğının, yaradılan şəraitin müqabilində bundan sonra da nümunəvi xidmət edərək etimadı doğruldacaqdır.

Hərbçi ailələri adından minnətdarlıq edən Səlimə İbrahimova demişdir: "Uzun illər Naxçıvanda xidmət edən hərbçi ailəsi olaraq biz Ali Məclis Sədrinin rəhbərliyi ilə Naxçıvanın necə çətin şəraitdən bugünkü günə gəlməsinin şahidi olmuşuq. Hərbi qulluqçuların, onların ailələrinin sosial-məişət problemləri daim diqqətdə saxlanılır. Görülən işlərin davamı kimi, bu gün tam təchizatlı, yüksək yaşayış şəraiti olan mənzillər istifadəmizə verilir".

Sonra 20 ildən artıq qüsursuz xidmət edən hərbi qulluqçulara mənzillər verilmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il 28 dekabr tarixli Fərmanına əsasən Azərbaycan Ordusunda 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçulara mənzillər təqdim olunur. Ölkə Prezidentinin müvafiq Fərmanına uyğun olaraq 26 İyun – Silahlı Qüvvələr Günü ərəfəsində 20 ildən artıq qüsursuz xidmət edən 7 hərbçi mənzillə təmin olunur.

Ali Məclisin Sədri polkovnik Yusif Axundova, ehtiyatda olan polkovnik-leytenant Fərman Rəhimova, polkovnik-leytenant Hikmət Gəncəliyevə, baş gizir Əkrəm Məmmədova, gizir Rauf Bağırova, istefada olan baş gizir Şahlar Kazımova və gizir Fərad Məmmədova mənzillərin orderlərini təqdim etmişdir.

Hərbçilərə təqdim olunmuş təmirli mənzillər Naxçıvan, Şərur, Babək və Şahbuz şəhərlərində yerləşir.

Sonra Ali Məclisin Sədri hərbçi uşaqlarına hədiyyələr vermiş, binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 44 mənzilli yaşayış binası 6 mərtəbədən və 3 girişdən ibarətdir. İki, üç və dördotaqlı mənzillərdə bütün kommunal-məişət şəraiti yaradılmış, fərdi istilik sistemi qurulmuşdur. Mənzillər mebel dəstləri və məişət əşyaları ilə tam təmin olunmuşdur. Binada hərbçi ailələrinin rahatlığı nəzərə alınmış, birinci mərtəbədə mağaza, ərzaq anbarları, kiçik və böyük tədbir zalları, yeməkxana, qarderob, gözəllik salonu və digər xidmət sahələri istifadəyə verilmişdir. Binanın həyətində uşaq oyun meydançası yaradılmış, müxtəlif dekorativ ağac və gül kolları əkilmiş, istirahət köşkü istifadəyə verilmiş, oturacaqlar qoyulmuşdur. Həmçinin bildirilmişdir ki, hərbi hissədə abadlıq və quruculuq işləri davam etdirilir, əsgər yataqxanaları əsaslı təmir olunur, silah və texnikaların saxlanc imkanları artırılır.

Bina ilə tanışlıqdan sonra hərbçi ailələri ilə görüşən Ali Məclisin Sədri demişdir: Yaşayış binasında ailələrin rahat yaşayışı üçün lazım olan hər cür şərait yaradılıb. Hərbi xidmət o zaman uğurlu olur ki, hərbi qulluqçuların həm xidmət şəraiti, həm də ailəsinin rahat yaşayışı təmin edilir. Bu gün muxtar respublikada yerləşən hərbi hissələrdə həm şəxsi heyətin xidmətini uğurla davam etdirməsi, həm də onların ailələrinin rahat yaşayışı üçün hərtərəfli imkanlar vardır. Silahlı Qüvvələr Günü ərəfəsində yeni yaşayış binasının istifadəyə verilməsi, eyni zamanda ölkəmizdəki dövlət-xalq-ordu birliyinin nümunəsidir.

Ali Məclisin Sədri xalq-ordu birliyinin nümunəsi kimi hərbi hissələrə istehsal etdikləri məhsullardan sovqat aparan, ordu ilə həmrəylik nümayiş etdirən muxtar respublika sakinlərinə təşəkkürünü bildirərək demişdir: Bu birlik ordunun qüdrətini daha da artırır, ordu quruculuğu tədbirlərinin uğurla aparılmasına imkan verir. Ordunun möhkəmlənməsi isə müstəqilliyimizin möhkəmlənməsi deməkdir. Əlamətdar gündə xidməti yaşayış binasının istifadəyə verilməsi, qüsursuz xidmət edən hərbçilərə mənzillərin təqdim olunması dövlətimizin orduya olan diqqətinin göstəricisidir.

Mənzillə təmin olunmuş zabit Rüstəm Əliyev demişdir: "Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsində doğma Naxçıvanımız güclü müdafiə qüdrətinə malikdir. Zabit-gizir ailələrinin sosial müdafiəsinin gücləndirilməsi dövlətimizin orduya, hərbi qulluqçulara və onların ailələrinə göstərdiyi qayğının daha bir ifadəsi, dövlət-xalq-ordu birliyinin təzahürüdür. Yüksək dağlıq şəraitində xidmət etməyimizə baxmayaraq, bizim üçün hər bir şərait yaradılıb. Batabat və Şada tabor mərkəzlərində, Aşağı Buzqov və Gərməçataq bölük mərkəzlərində müasir tələblərə cavab verən əsgəri yataqxanalar inşa edilmişdir. Dəniz səviyyəsindən 3 min metr yüksəklikdə yerləşən mövqelərimiz elektrik aqreqatları, günəş paneli və mavi yanacaqla təmin olunmuşdur. Bütün bunlar hərbi qulluqçuların rahat xidmət aparması üçün yaradılan şəraitdir. Ali Məclis Sədrinin Naxçıvan diyarının müdafiəçiləri ilə tez-tez görüşü bizdə ruh yüksəkliyi yaratmaqla bərabər, üzərimizə böyük məsuliyyət qoyur".

Rüstəm Əliyev göstərilən diqqət və qayğıya görə hərbi qulluqçular adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmiş, bundan sonra da etimadı doğruldacaqlarına, verilən bütün əmr və tapşırıqları yerinə yetirməyə hazır olacaqlarına söz vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür*

# Ordu müstəqilliyimizin dayağıdır



***Ümummilli liderimiz Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanı ilə Əlahiddə Azərbaycan Korpusunun yarandığı tarix – iyunun 26-sı Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü elan olunmuşdur.***

Azərbaycanda nizami və yüksək döyüş hazırlığına malik ordunun yaradılması və inkişafı görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyətin ölkəmizdə ilk dəfə siyasi hakimiyyətə gəldiyi 1969-cu ildən başlayaraq digər sahələrdə olduğu kimi, ordu quruculuğu istiqamətində də mühüm addımlar atılmışdır. Ulu öndərin uzaqgörən siyasətinin nəticəsində ötən əsrin 70-ci illərində ölkəmizdə Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin yaradılması, burada hazırlanan hərbçi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli milli ordusunun zabit heyəti ilə təmin olunmasında əhəmiyyətli rol oynamışdır.

Peşəkar milli ordunun yaradılmasına ötən əsrin 90-cı illərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda başlanılmışdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsi yaradılmış, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul edilmişdir. Həmin il oktyabrın 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirilmişdir. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı 705 saylı hərbi hissəyə təhvil verilmişdir.

Azərbaycan Silahlı Qüvvələrinin təkmilləşdirilməsi prosesinə isə ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra başlanılmışdır. Qısa müddətdə ordumuzun strukturu tam formalaşdırılmış, bütün növ hərbi birləşmələr yaradılaraq komplektləşdirilmişdir. Eyni zamanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə ordunun qanunvericilik bazası yaradılmış, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edilmişdir. Bundan əlavə, Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq əlaqələrinin qurulmasına diqqət yetirilmiş, 1994-cü ildə Azərbaycan Respublikası NATO-nun "Sülh Naminə Tərəfdaşlıq Proqramı"na qoşulmuşdur. Nəticədə, milli hərbi birləşmələrimiz sülhməramlı qismində dünyanın müxtəlif münaqişə zonalarında iştirak etmiş, fəaliyyəti yüksək qiymətləndirilmişdir. ***"Müstəqil Azərbaycan Respublikasının ən vacib, ən böyük sahəsi onun Silahlı Qüvvələridir, milli ordusudur. Hər bir dövlətin müstəqilliyinin rəmzi, təminatçısı onun silahlı qüvvələridir.***



***Etibarlı, güclü, Vətənini, torpağını müdafiə etməyə qadir silahlı qüvvələri olmayan ölkənin müstəqilliyi də etibarlı ola bilməz"***, – deyən ulu öndərin 1993-cü ildə ali hakimiyyətə ikinci qayıdışından sonra həyata keçirdiyi tədbirlər, ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrinin inkişafında yeni mərhələ olmuşdur. Ölkə Prezidenti cənab İlham Əliyevin də dediyi kimi, ***"1993-cü ildə ölkəmiz, demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi gedirdi və məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində biz bu ağır sınaqdan üzüağ çıxa bildik. Məhz bugünkü Zəfərin təməli, bax o vaxt qoyulmuşdur".***

Dahi şəxsiyyətin ordu quruculuğu sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə iqtisadiyyatının sürətli inkişafı, ilk növbədə, dövlətimiz üçün prioritet olan ordumuzun büdcəsinin artmasına, orduda müasir komplektləşdirmənin aparılmasına geniş imkanlar yaratmışdır. Nəticədə, silahlı qüvvələrimiz dünyanın ən müasir silah-sursatları, hərbi-texnoloji avadanlıqları ilə təmin olunmuş, şəxsi heyətin döyüş ruhu dəfələrlə yüksəldilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev hələ 2003-cü ildə andiçmə mərasimində çıxış edərkən demişdi: ***"Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".*** Vətən müharibəsinə kimi ötən müddətdə sadalanan vəzifələr yüksək səviyyədə həyata keçirildi. Ordunun gücləndirilməsi ilə bağlı olduqca mühüm işlər görüldü, silahlı qüvvələrimizdə keyfiyyət və kəmiyyət dəyişikliklərinin yaranması reallaşdırıldı. 2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordumuz işğal altında olan ərazilərimizin azad olunması üçün geniş hərbi əməliyyatlara başladı və 44 gün ərzində düşməni diz çökdürərək darmadağın etdi, ərazi bütövlüyümüz təmin olundu. Vətən müharibəsi silahlı qüvvələrimizin nəyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi. Bu savaş, eyni zamanda XXI əsrin ən sürətli, müasir və ədalətli müharibəsi kimi yaddaşlara həkk olundu. Üçtərəfli Bəyannamədə Zəngəzur dəhlizi vasitəsilə nəqliyyat əlaqələrinin bərpası da ölkəmizin regiondakı lider mövqeyini bir daha təsdiqlədi. Bu tarixi nailiyyət, heç şübhəsiz ki, bölgənin, xüsusilə də muxtar respublikanın gələcək rifahı və tərəqqisində mühüm rol oynayacaq. Əsas şüarı "Qarabağ Azərbaycandır!" olan Vətən müharibəsi, həm də ölkəmizin bu haqq mübarizəsində ona siyasi və mənəvi dəstək olan qardaş Türkiyə Respublikası ilə əlaqələri yeni müstəviyə daşıdı. Ötən il 15 İyun – Milli Qurtuluş Günündə Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsi bu birliyin daimi olacağının, eyni zamanda hərbi təhlükəsizlik məsələlərində birgə fəaliyyətin təsdiq olunmasının qarantına çevrilmişdir.

Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilmiş, dövlət başçısının "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin

*Ardı 3-cü səhifədə*

təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Bu əlamətdar hadisə Naxçıvanın müdafiə potensialının, hərbi hissələrin döyüş hazırlığının daha da yüksəlməsinə əsaslı zəmin yaratmışdır. Ölkə Prezidenti demişdir: ***“Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir. Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir”.*** Muxtar respublikada ordu quruculuğu prosesi davamlı xarakter daşıyır. Hər il yeni əsgəri-məişət-yaşayış kompleksləri tikilir, hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi hazırlığı diqqətdə saxlanılır. Təsadüfi deyil ki, ötən dövrdə muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı həyata keçirilmiş tədbirlər çərçivəsində yüzlərlə hərbi obyekt tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir. Həmçinin xalq-ordu birliyi özünün ən yüksək səviyyəsinə çatmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mütəmadi olaraq sərhəd bölgələrindəki hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin qayğıları ilə yaxından maraqlanması şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə onlarda vətənpərvərlik hissinin daha da güclənməsinə səbəb olmuşdur.



Ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir ki, Əlahiddə Ümumqoşun Ordu 2017 və 2018-ci illərdə döyüş və ictimai-siyasi hazırlıqda əldə olunmuş nailiyyətlərə görə Azərbaycan Respublikası Silahlı Qüvvələri üzrə birinci yerə layiq görülmüşdür. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad ordumuzun Naxçıvanda yerləşən hissələrinin gücünü hər kəsə nümayiş etdirmişdir. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun 26 il işğal altında olan Şərur rayonunun Günnüt kəndini və 11 min hektar ərazini azad edərək mühüm strateji üstünlüklərə yiyələnməsi isə Böyük Zəfərə gedən yolun başlanğıcı olmuşdur.

Muxtar respublikada ordu quruculuğu sahəsində görülən mühüm işlərdən biri də kadr hazırlığı ilə bağlıdır. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Liseyin maddi-texniki bazası möhkəmləndirilmiş, kursantlar üçün müasir tədris və məişət şəraiti yaradılmışdır. İndiyədək 3 mindən çox kursantın təhsil aldığı lisey ordumuzun peşəkar zabitlərlə təminatında böyük rol oynayır. Liseyin məzunları İkinci Qarabağ müharibəsində də qəhrəmanlıq göstərmiş, onlar arasında şəhidlik zirvəsinə yüksələnlər olmuşdur. Hərbçi kadrların hazırlığına böyük əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov liseyin 22-ci buraxılış mərasimində kursantlara müraciətlə demişdir: ***“... Bu gün müasir hərbi məktəblərdə təhsil aldığınız kimi, gələcəkdə də hər cür imkanlara malik hərbi hissələrdə xidmət edəcəksiniz. Siz qalib ölkənin qalib ordusunun zabiti adını daşıyacaqsınız. Bu, böyük şərəf və məsuliyyət deməkdir. Ona görə də ali hərbi təhsil illərində hərbi bilikləri və texnologiyaları dərindən mənimsəməli, qarşıya qoyulan döyüş tapşırıqlarının icrasına hər an hazır olmalısınız. Sizdən əvvəlki məzunların xidməti fəaliyyəti hər biriniz üçün nümunə olmalı, bu illər ərzində formalaşmış ənənə davam etdirilməlidir”.***

Şuşanın alınması ilə həm də ata vəsiyyətini yerinə yetirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev qalib sərkərdə kimi ötən il ulu öndər Heydər Əliyevin doğum günündə Naxçıvana gəlmiş, muxtar respublikada ordu quruculuğu sahəsində görülən işlərlə bir daha yaxından tanış olmuş, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının, hərbi aerodromun açılışında iştirak etmişdir. Torpaqlarımızın işğaldan azad olunmasında Əlahiddə Ümumqoşun Ordunun uğurlarına toxunan ölkə başçısı demişdir: ***“İkinci Qarabağ müharibəsində Naxçıvan ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni artıq bildirə bilərəm ki, Naxçıvan ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının güclənməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır”.***

*Bu gün Azərbaycan Ordusu yaradılmasının 104-cü ildönümünü böyük qürur hissi ilə qeyd edir. Xalqımıza tarixində ən böyük Qələbə hissini yaşadan Azərbaycan Silahlı Qüvvələri bundan sonra da ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunmasına öz töhfəsini verəcəkdir. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi:* ***“Ordu ölkəmizin, millətimizin, dövlətimizin müstəqilliyinin dayağıdır!”***

**“Şərq qapısı”**

# Azərbaycan Ordusu müstəqil dövlətçiliyimizin və ərazi bütövlüyümüzün qarantıdır

*Deyirlər, Vətən sərhəddən başlayır. Vətəni göz bəbəyi kimi qorumaq, uğrunda qan tökmək, can vermək amalı onu sevən hər bir vətəndaşın, şübhəsiz ki, ən ümdə vəzifəsidir. Vətənə, yurda, doğma torpağa bağlılıq öz soykökümüzə, suverenliyin və müstəqilliyin müqəddəs rəmzi olan şanlı bayrağımıza, qədim tariximizə, o cümlədən milli-mənəvi dəyərlərimizə bağlılıqdır. Ulu öndər Heydər Əliyev Vətən sevgisinin mahiyyətini və əhəmiyyətini böyük uzaqgörənliklə ön plana çəkərək demişdir:* ***“Vətəni qorumaq öz ana torpağını, evini, obasını, yurdunu qorumaqdır. Vətəni qorumaq öz namusunu, şərəfini qorumaqdır. Vətəni qorumaq öz atasını, anasını, balalarını, övladlarını qorumaqdır. Vətəni qorumaq Azərbaycan xalqının tarixini, mənəviyyatını, əsrlərboyu əldə etdiyi milli mədəniyyətini, milli iftixarını qorumaq deməkdir. Bu, şərəfli yoldur. Bu, şərəfli vəzifədir”.***

### *“Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı”*

Əminliklə demək olar ki, böyük şair və publisist Məmməd Arazın bu misraları aktuallığı baxımından vətəndaşlıq konsepsiyasının bütün sahələrini bu gün də özündə ehtiva etməkdədir. Əbədi, əzəli Azərbaycan torpaqlarında özlərini aborigen xalq kimi göstərməyə çalışan Ermənistanın Azərbaycana qarşı əsassız ərazi, torpaq iddiası və bu iddianı reallaşdırmaq niyyəti özünü bu ölkənin “vətən daşı” bilənləri Vətənin müdafiəsinə qalxmağa, hər bir qarışı uğrunda qan tökməyə vadar etdi. Bu baxımdan Vətən müharibəsi kimi yaddaşlara yazılan əkshücum əməliyyatları – 44 günlük döyüşlərlə bağlı baş verənləri düzgün qiymətləndirmək üçün son dövrlərin mənzərəsinə tarixi ekskursiya etmək kifayətdir.

### *Arzulardan reallığa – şərəfli missiya*

Türk dünyasının məşhur alimi olan, eyni zamanda elmdə Aristoteldən sonra “İkinci müəllim” fəxri adını qazanmış Əbu Turxanın müdrik bir kəlamı var: “Böyük adamların ömrü onların ideyalarının ömrü ilə ölçülür”. İdeya əbədi olanda, şübhəsiz ki, şəxsiyyət də əbədiyyətə qovuşur. Bu xüsusda ən vacib məqam isə ideya sahiblərinin yarım qalan arzularının reallığa çevrilməsidir.

Bu gün ulu öndər Heydər Əliyev siyasətini bütün parametrlər üzrə böyük siyasi iradə və qətiyyətlə davam etdirən ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ordu quruculuğunun da inkişafına böyük töhfə verməkdədir. Etiraf etmək lazımdır ki, 104 illik tarixində çətin, mürəkkəb, o cümlədən şərəfli bir yol keçən Azərbaycan Ordusu tarixinin heç bir mərhələsində son 25 ildə olduğu qədər inkişaf etməyib. Təsadüfi deyil ki, bu gün Azərbaycan Ordusu müasir silah-sursat, döyüş texnikası, onların keyfiyyəti, şəxsi heyətin sayı və döyüş əzmi baxımından dünyanın mükəmməl hərb sənətinə malik müxtəlif ölkələri ilə eyni cərgədə qərarlaşır və aparıcı 50 ordu sırasındadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ***“Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır və beynəlxalq reytinqlər də, həyat da bunu göstərir, bizim hərbi uğurlarımız da buna dəlalət edir”*** fikri bu faktı bir daha təsdiq edir.

Eyni zamanda ötən müddət ərzində ordumuzun döyüş hazırlığı və psixoloji səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin bacarığının artırılaraq maddi-texniki bazanın inkişaf etdirilməsi, xüsusilə diqqətdə saxlanılmış, qabaqcıl üsulların tətbiqilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, eləcə də şəxsi heyətin müxtəlif ölkələrdə döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində böyük uğurlara nail olunmuşdur. Təlim demişkən...

### *Təlimdə tər, meydanda zəfər*

Avropa və dünya hərb sənətində böyük iz qoyan məşhur rus sərkərdəsi Aleksandr Suvorov təlimlərin peşəkarlığın artırılmasını daha da stimullaşdırdığını, o cümlədən mütəmadi olaraq keçirilməsini yüksək dəyərləndirərək deyib: “Təlim əsgərin akademiyasıdır”. Müasir hərb tarixində də təsdiq olunduğu kimi, təlimlər ən mühüm hərbi əməliyyatlar zamanı şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində, psixoloji gərginliyin azaldılmasında, həmçinin qələbəyə olan inamın formalaşmasında başlıca rol oynayır.

Bu baxımdan son illər ordu quruculuğumuzda diqqət yetirilən prioritet sahələrdən biri də müxtəlif genişmiqyaslı hərbi təlimlərin davamlı olaraq təşkilidir. Təlimlərin keçirilməsində əsas məqsəd döyüş əməliyyatları planlarının hazırlanması, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması və birgə tapşırıqları icra etmək vərdişlərinin inkişaf etdirilməsindən ibarətdir.

Qeyd etmək lazımdır ki, ötən dövrlər ərzində dünyanın bir sıra qabaqcıl ölkələri ilə imzalanan hərbi əməkdaşlıq haqqında sazişlərə uyğun olaraq Azərbaycan Respublikasında və xarici ölkələrdə çoxşaxəli hərbi təlimlər uğurla reallaşdırılıb. Həmçinin Naxçıvan Muxtar Respublikasında düşməni lərzəyə gətirən “Sarsılmaz qardaşlıq-2019”, 2020-ci ildə Azərbaycan-Türkiyə və “Sarsılmaz qardaşlıq-2021” birgə növbəti hərbi təlimləri bölmələrin döyüşə hazırolma vəziyyətini və şəxsi heyətin peşəkarlıq səviyyəsini daha da təkmilləşdirməklə yanaşı, modern silahların və müxtəlif təyinatlı döyüş texnikalarının tətbiqinə də geniş imkanlar yaradıb.

### *Tarixi zəfərin böyük müjdəçiləri: Aprel döyüşlərindən Günnüt qələbəsinə*

Tarixin bəzi hadisələri vardır ki, qısa zaman kəsiyində xatirəyə çevrilərək unudulur. Lakin elə hadisələr də vardır ki, onlar bütöv bir xalqın təqvimində silinməz iz buraxaraq yeni tarixin başlanğıcına çevrilir. Şübhəsiz ki, 2016-cı ilin şanlı Aprel və 2018-ci ilin Günnüt qələbəsi də belə tarixi hadisələrdəndir.



Ardıcıl olaraq əldə edilən hər iki tarixi qələbə Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını, xalqın arzu və istəyini reallaşdıracaq ordumuzun şəxsi heyətinin daim döyüşə hazır olduğunu dosta da, düşmənə də açıq şəkildə bəyan etdi. Bu müvəffəqiyyətlər, eyni zamanda ordumuzun davamlı təxribat törədən, dinc sakinləri hədəfə alan azğın düşmən üzərində parlaq qələbəsi kimi əbədi yaddaşlara həkk oldu.

Bununla yanaşı, Günnüt zəfərindən sonra Ermənistan KİV və sosial şəbəkələri Azərbaycanın güclü ordusu haqqında etiraflarını açıq şəkildə dilə gətirməyə məcbur olaraq “keçilməz”, “məğlubedilməz” ordu xülyalarından da əl çəkməyə başladılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Günnüt əməliyyatında əldə edilən tarixi zəfər və qələbənin zərurətini vurğulayaraq demişdir: ***“Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun döyüş qabiliyyəti yerindədir və uğurlu Günnüt əməliyyatı bunun bariz nümunəsidir. Biz çox önəmli strateji yüksəklikləri Ermənistan ordusundan təmizlədik, o yüksəklikləri əldə etdik. İkinci Qarabağ müharibəsində bu yola nəzarət imkanlarımız bizə bir çox informasiyanın əldə edilməsində kömək göstərdi”.***

### *1 yaşlı körpəyə 1 tonluq ballistik raket atan işğalçı ölkə üzərində BÖYÜK QƏLƏBƏ*

Qalib qürurla, məğlub isə hər zaman intiqam hissi ilə yaşayır. Aprel və Günnüt zəfərlərindən dərs çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyi yenə də müntəzəm xarakter alan təxribatlarından əl çəkmədi. Nəticədə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuz 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 günlük müharibədə ərazi bütövlüyümüzü bərpa etmiş, torpaqlarımız işğaldan azad olunmuş, o cümlədən əlini günahsız körpənin, qadının, yaşlı insanın qanına batırmağa vərdiş edən işğalçı ölkə üzərində əzmkar qələbə qazanmışdır. Möhtəşəm qəhrəmanlıq salnaməmiz olan bu böyük Zəfər Azərbaycana ötən əsrin sonlarına yaxın itirdiyi torpaqları geri qaytarmaqla yanaşı, eyni zamanda 30 ilə yaxındır, ölkədaxili məcburi miqrasiyanın əsas subyektini təşkil edən, vaxtilə öz dədə-baba yurdlarından zorla didərgin salınan məcburi köçkünlərimizin də doğma yurdlarına yenidən qayıtmasına zəmin yaratdı.

Bu gün tariximizin ən parlaq, vüqarlı, o cümlədən qürurlu günlərini yaşayırıq. Mübariz ruhlu, polad iradəli Azərbaycan xalqı 30 il səbirlə, təmkinlə dözdü, gözlədi. Çünki xalq öz liderinə, siyasi iradəsinə, uğurlu diplomatiyasına daim inanırdı. Nəticə etibarilə, Azərbaycan Vətən müharibəsində həm döyüş meydanından, həm də siyasi arenadan qalib bir dövlət kimi çıxdı. Qələbəsi ilə regionda yeni reallıq yaradan Azərbaycan bir daha sübut etdi ki, hər zaman haqqın, ədalətin tərəfindədir. Bu tarixi nailiyyətin ən diqqətçəkən nüanslarından biri də məhz beynəlxalq hüquqda ədalətin bərpası, qalib gələn haqqın təcəssümü idi. Şübhəsiz ki, mövcud gerçəklikləri ermənilərin torpaqlarımıza əsassız iddiaları ilə tanış olan beynəlxalq ictimaiyyət də yaxşı bilir. Bu baxımdan həqiqətləri qəbul edən və ona ehtiramla yanaşan ölkələrin haqq işi uğrunda mübarizəmizdə bizə dəstək olması da təsadüfi deyil.

*Ardı 4-cü səhifədə*

Xüsusilə qeyd edilməlidir ki, müzəffər Ordumuzun tarixi Qələbəsi ilə nəticələnən 44 günlük müharibədə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları da öz vəzifə borclarını şərəflə, ləyaqətlə və peşəkarlıqla yerinə yetirərək işğal altında olan rayonlarımızın, o cümlədən Azərbaycanın mədəniyyət paytaxtı – Şuşanın azad olunmasında müstəsna rol oynayıblar. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər”.***

### *Şəhid ailələri və qazilərə verilən yüksək dəyər: gənc nəslə vətənpərvərlik örnəyi*

Təbii ki, müharibə şəhidsiz, şəhidsiz isə Vətən olmur. Əzəli və əbədi torpaqlarımızın işğaldan azad olunması, şanlı bayrağımızın bütöv Azərbaycanda dalğalanması naminə minlərlə can qurban oldu, hər bir insanın yüksəlmək istədiyi şəhidlik zirvəsi fəth edildi. Əminliklə demək olar ki, ölümün gözünə dik baxan qəhrəmanlarımızın sonsuz Vətən sevgisi gələcək nəsillərin vətənpərvərlik tərbiyəsində böyük bir məktəb rolunu oynayır. Onların əbədiyyətə qovuşması, bu şərəfli amal uğrunda sağlamlıqlarını itirməsi həm də arxalanıb, güvəndikləri dövlətin möhkəmlənməsi, qüdrətlənməsi deməkdir. Hərbi qulluqçularımızın göstərdikləri şücaət və fədakarlıqlar ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında hər zaman yüksək qiymətləndirilir. Bu gün muxtar respublikamızda şəhid ailələrinə və müharibə iştirakçılarına hərtərəfli qayğı dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Xüsusən də 44 günlük Vətən müharibəsindən sonra bu istiqamətdə önəmli addımlar atılıb. Belə ki, onların məişət şəraitinin və mənəvi-psixoloji vəziyyətinin yaxşılaşdırılmasına, sosial dəstək paketlərinin icrasına xüsusi həssaslıqla yanaşılır. Bu istiqamətdə reallaşdırılan ardıcıl tədbirlərin davamı kimi, ötən dövr ərzində bu kateqoriyadan olan vətəndaşlarla mütəmadi olaraq müxtəlif görüşlər keçirilib, həmçinin müasir tələblərə cavab verən mənzillər və avtomobillər təqdim olunub. Sistemli və ardıcıl xarakter daşıyan bu tədbirlər muxtar respublikamızda insan kapitalına verilən yüksək dəyərin, eləcə də torpaqlarımızı düşmən işğalından azad edən şəhidlərin ailələrinə və qazilərə göstərilən ehtiram və diqqətin təzahürüdür.

*Bu gün əzəli Azərbaycan torpağı olan Qarabağ öz həqiqi, doğma sahiblərinə qovuşmağın böyük sevincini, qürurunu yaşayır. Bu qovuşma və bütövləşmənin təməlini isə istisnasız, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi xətt, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin mükəmməl diplomatiyası, Milli Ordumuzun fədakar və əzmkar mübarizəsi, Xalq-Lider-Ordu birliyi qoyub.*

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Əsgərin









*Harda əsgər görsən dayan, salam ver*
*Üzündən, gözündən öp o əsgərin.*
*Vətən güllərini, çiçəklərini*
*Hörmətlə başına səp o əsgərin.*

*Görsən ki, bir azca qaməti sınıb,*
*Görsən ayağında yarası vardır,*
*Məlhəm ol dərdinə, ağrılarına*
*Mərhəmət özü də bir etibardır.*

*O əsgər vətənçün şərəfdir bu gün,*
*Bizim qürurumuz, vüqarımızdır.*
*Yaşadın yarımçıq arzularını,*
*Hər bir arzuları baharımızdır.*

*Ayaqlar altına düşən qürurum*
*Əsgər sayəsində ucaldı göyə,*
*Onlar adımızı tarixə yazdı,*
*Millətik, millətək biz varıq deyə!*

*Yaralı əsgəri çiyinlərində*
*Günlərlə çiynində daşıyan əsgər,*
*Südü halal olsun ananın sənə,*
*Sənin sayəndədir bu böyük zəfər!*

*Biz böyük millətik, qoy gücümüzü*
*Bütün yer kürəsi bir daha görsün.*
*Türkün dünyaları titrədən gücü*
*Bir də əfsanəyə, nağıla dönsün!*

**Asim YADİGAR**

## 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününə həsr olunmuş tədbir keçirilib





*Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdə əvvəlcə Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının baş müəllimi, mayor Nazim Həsənov raport verib. Sonra torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda canlarından keçən şəhidlərimizin unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Universitetin rektoru Elbrus İsayev tədbir iştirakçılarını Silahlı Qüvvələr Günü münasibətilə təbrik edib və Azərbaycanda güclü, qüdrətli və yüksək döyüş hazırlığına malik ordu yaradılmasının ümummilli liderin adı ilə bağlı olduğunu bildirib. Qeyd edilib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyəti, ordumuzun şanlı mübarizəsi 44 günlük Vətən müharibəsindəki şanlı Qələbə nəticəsində 2020-ci ili tariximizə Zəfər ili kimi həkk etdi. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır.

Pedaqoji fakültənin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Vəli Əliyev fakültədə yaradılan şəraitdən, görülən işlərdən danışıb.

Vətən müharibəsi iştirakçısı, Məşqçilik ixtisası üzrə qiyabi şöbənin II kurs tələbəsi Fəxri Qazıbəyov Silahlı Qüvvələrin yaranması ilə əlaqədar iştirakçıları təbrik edib.

Qeyd edək ki, Fəxri Qazıbəyov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Füzuli, Xocavənd rayonlarının və Şuşa şəhərinin azad olunmasında yaxından iştirak edib. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Döyüşdə fərqləndiyinə görə”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə” medalları, Azərbaycan Respublikası Baş nazirinin Sərəncamı ilə “Vətən müharibəsi iştirakçısı” medalı və Azərbaycan Respublikasının müdafiə nazirinin Sərəncamı ilə “Şücaətə görə” medalı ilə təltif olunub.

Tədbir zamanı Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Musiqi Kollecinin müəllim və tələbələrinin hazırladıqları musiqi nömrələri, Pedaqoji fakültənin tələbələrinin hazırladıqları hərbi idman oyunları izləyicilər tərəfindən alqışlarla qarşılanıb. Sonra bir qrup tələbə idmanda qazandığı uğurlara görə təşəkkürnamə ilə təltif olunub.

Sonda Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının müəllim və tələbələri nümunəvi çıxışlar və hərbi yürüş nümayiş etdiriblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

*Naxçıvan Qarnizonu Qoşunlarında gizir, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və qadın hərbi qulluqçu kurslarını bitirən gənclərə sertifikatlar təqdim edilib.*

## Sertifikatlar təqdim olunub



Müxtəlif hərbi ixtisaslar üzrə peşəkar zabitlər tərəfindən yetişdirilən kursantlar xidmət yerlərinə təntənəli mərasimlə yola salınıblar. Mərasimdə şəhidlərimizin əziz xatirəsi yad edildikdən sonra Dövlət Himni səsləndirilib.

Polkovnik Mahmud Əmirov 44 günlük Vətən müharibəsində qazanılmış təcrübə ilə keçirilən məşğələlərin, ümumqoşun, ixtisas, fiziki hazırlıq dərslərinin və təlim-atış çalışmalarının şəxsi heyətin peşəkarlaşmasında mühüm rol oynadığını diqqətə çatdırıb.

Məzunlar adından çıxış edən Təbriz Əliyev keçirilən məşğələlərdə qazandıqları bilik və bacarıqları xidmət yerlərində uğurla tətbiq edəcəklərini bildirib.

Çıxışların ardından general-leytenant Fazil Ağalarov Naxçıvan Qarnizonunun rəisi, general-polkovnik Kərəm Mustafayevin təbrikini şəxsi heyətə çatdırıb. Bildirilib ki, muxtar respublikada Vətənə sədaqətli, peşəkar hərbi qulluqçuların yetişdirilməsi diqqət mərkəzində saxlanılır, Naxçıvan Qarnizonu Qoşunlarında təkmilləşdirmə kursları uğurla keçirilir. İnanırıq ki, peşəkar hərbi qulluqçu kimi buraxılış mərasimi keçirilən gənclərimiz də kurslarda qazandıqları təcrübələrdən yararlanaraq Vətənimizin müdafiəsində ayıq-sayıq dayanacaqlar.

Sonra məzunlara sertifikat və hədiyyələr təqdim edilib. Xatirə lövhələrinə buraxılış emblemləri vurulub və məzunların tribuna önündən təntənəli keçidi olub.

**Kənan CƏLİLOV**

*Naxçıvan Muxtar Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyası narkomaniyaya qarşı mübarizə tədbirlərini davam etdirir.*

## Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları məhv edilib



İyunun 25-də Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin 24 dekabr 2021-ci il və 27 aprel 2022-ci il tarixli hökmləri, Culfa Rayon Məhkəməsinin 28 yanvar, 10 mart və 17 may 2022-ci il, Şərur Rayon Məhkəməsinin 19 fevral 2022-ci il, Sədərək Rayon Məhkəməsinin 12 may 2022-ci il, Naxçıvan Şəhər Məhkəməsinin 27 may və 7 iyun 2022-ci il tarixli qərarları, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin 15 mart və 9 iyun 2022-ci il tarixli məktubları, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin 8 iyun 2022-ci il tarixli hesabatı, 16 və 21 iyun 2022-ci il tarixli məktubları, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin 22 iyun 2022-ci il tarixli məktubuna əsasən (ümumilikdə, 15 iş üzrə) Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində ayrıca bağlamalarda saxlanılan ümumi çəkisi 10 qram 608 milliqram heroin, 242 kiloqram 280 qram maye halda heroin, 144 qram 391 milliqram qurudulmuş marixuana, 28 qram 995 milliqram tiryək, 433 qram 774 milliqram həşiş narkotik vasitələri, 2 qram 122 milliqram bonzainin tərkibində sintetik kannabinoidlərə aid narkotik təsirli maddə, 175 qram 941 milliqram metamfetamin psixotrop maddəsi, metadon 121 ədəd bütöv, 11 parça, 73 qram maye halda, 28 milliqram MDMA (ekstazi), 489 ədəd fenobarbital, 110 ədəd alprazolam, 126 ədəd klonazepam, 61 ədəd diazepam, 8 ədəd oxazepam, 418 ədəd tramadol, 1 ədəd mudrax, 10 ədəd preqabalin, 166 ədəd çikladol, 1 ədəd skunk, 40 ədəd fenadizepin, 293 ədəd betametazon, 112 ədəd supradadin, 20 ədəd paroxin, 10 ədəd asetaminophen codeine, 8 ədəd noxşa, 24 ədəd qaloperidol, 10 ədəd clozapine, 6 ədəd clozapex, 9 ədəd fenazepam, 6 ədəd steptoçid, 8 ədəd bütün 1 ədəd parça buprenorfin, 1 ampul fentanil, 55 ədəd naməlum həb, 187 bütöv, 3 parça psixotrop tərkibli dərman, 2 kiloqram 139 qram çətənə toxumu, 108 ədəd yabanı xaşxaş bitkisi, 3 ədəd şpris, 1 ədəd narkotik vasitələrin və psixotrop maddələrin istifadəsi üçün nəzərdə tutulmuş alət komissiyanın üzvləri tərəfindən naturada üzləşdirilərək bağlamaların açılmadığı və möhürün yerində olduğu müəyyən edildikdən sonra Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin tibbi tullantıların ləğvi sistemində yandırılmaqla, maye halda olan heroin isə Naxçıvan Şəhər Sutəmizləyici Qurğular Kompleksində suda həll olunmaqla məhv edilib.

**Səbuhi HƏSƏNOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 576